# Xalqımız bu faciəni heç zaman unutmayacaq

***"Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır.***

***Bu soyqırım, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir."***

***Heydər Əliyev***

Azərbaycanın tarixində də unudulması mümkün olmayan, bütövlükdə xalqın qəlbində dərin iz salaraq onu daim mübarizə və qisas ruhunda kökləyən elə faciəli hadisələr var ki, heç zaman yaddaşdan silinməyəcəkdir.

Erməni faşizminin xislətini, gerçək mahiyyətini çılpaqlığı ilə açan Xocalı soyqırımı da məhz unudulması mümkün olmayan belə dəhşətli hadisələrdən biridir. 28 il öncə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilər dünyada ən əzazil, qəddar və qaniçən millət olduqlarını, terroru dövlət siyasətinə çevirdiklərini bir daha təsdiq etmişlər.

Xocalıda törədilmiş amansız qətliam nəinki türk dünyasına, bütövlükdə bəşəriyyətin mütərəqqi dəyərlərinə, insanlığa və beynəlxalq hüquq normalarına qarşı yönəlmiş soyqırım idi. Həmin gün azğınlaşmış erməni quldur dəstələri mənfur imperiyanın 366-cı motoatıcı alayının bilavasitə iştirakı ilə hazırladıqları məkrli planı həyata keçirdilər. 613 nəfər öldürüldü. Öldürülənlərdən 63 uşaq, 106 qadın, 70 qoca xüsusi qəddarlıqla qətlə yetirilmişdir.487 nəfər ömürlük şikəst olmuşdur. 1275 nəfər dinc sakin - qoca, uşaq,qadın əsir götürülərək ağlasığmaz zülmə, işgəncələrə və təhqirə məruz qalmışdır. 8 ailə bütövlükdə məhv edilmiş, 24 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir.

Bütün bunlar bir daha sübut edir ki, ermənilik bəşəriyyətə qarşı çox böyük təhlükədir. Xocalıda mülki əhalinin planlı və məqsədli şəkildə qətlə yetirilməsini sübut edən çoxsaylı faktlardan biri də budur ki, həmin gün əhalinin zorakılıqdan qaçıb qurtarmaq istəyən hissələri ərazidən çıxış yollarında əvvəlcədən xüsusi hazırlanmış pusqularda güllələnmişlər. Xocalıdan çıxan əhalinin Naxçıvanik kəndi ərazisində pulemyot, avtomat və başqa silahlardan güllələbaran edilməsi faktı bunu bir daha sübut edir. Bütün bunlar ermənilərin 28 il öncə Xocalı şəhərində törətdikləri qeyri-insani hərəkətlərinin kökündə məhz soyqırım niyyətinin dayandığını aşkar surətdə üzə çıxarır.

Ulu öndərimiz Heydər Əliyev 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdandan sonra bir çox faciələrimiz kimi Xocalı soyqırımına da siyasi-hüquqi qiymət verilməsi mümkün olmuşdur. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis 1994-cü il fevralın 24-də "Xocalı soyqırımı günü haqqında" xüsusi qərar qəbul etmiş, sənəddə hadisənin baş vermə səbəbləri, günahkarlar təfsilatı ilə açıqlanmışdır.

Son 28 ildə Xocalı həqiqətlərinin dünyaya tanıdılması, Ermənistanın həyata keçirdiyi insanlıq əleyhinə cinayətin beynəlxalq miqyasda ifşası istiqamətində xeyli iş görülmüş, xarici dillərdə kitablar, sənədlər dərc olunmuş, Xocalı soyqırımı müxtəlif təşkilatlarda gündəmə gətirilmiş, bununla bağlı bir çox internet saytları yaradılmışdır.

Xocalı soyqırımının dünyaya tanıdılmasında Heydər Əliyev Fondunun vitse prezidenti Leyla Əliyevanın ardıcıl və səmərəli fəaliyyətini də xüsusi qeyd etməliyik. Hər il Leyla Əliyevanın təşəbbüsü ilə Xocalı soyqırımının dünyaya çatdırılması istiqamətində, bu faciəyə hüquqi-siyasi və mənəvi qiymət verilməsi üçün "Xocalıya ədalət" kompaniyası çərçivəsində 40-dan artıq ölkədə tədbirlər keçirilir.

**Qüdrət SƏMƏDOV,**
**"Qəbələ"**

# Gənclər Günü qeyd olunub

Qəbələ Rayon Təhsil Şöbəsində 2 fevral Gənclər Günü ilə əlaqədar tədbir keçirilmişdir.

Tədbiri təhsil şöbəsinin müdiri Arifə Bayramova açmışdır. Azərbaycan Respub-



likasının Dövlət Himni səslənmişdir.

Şöbə müdiri Respublikada Gənclər Gününün təsis edilməsi tarixi barədə məlumat vermişdir. O bildirmişdir ki, ulu öndər Heydər Əliyev tərəfindən gənclərə göstərilən diqqət və qayğı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Gənclərimiz hərtərəfli qayğı ilə əhatə olunublar. Son illər ölkədə, rayonumuzda xeyli gənc kadr böyük etimad göstərilərək məsul vəzifələrə irəli çəkiliblər. Fərəhli haldır ki, onların əksəriyyəti göstərilən etimadı layiqincə doğruldur.

Çıxış edən gənc müəllimlər onlara göstərilən diqqət və qayğıya görə ölkə prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Tədbir uşaq gənclər inkişaf mərkəzi dərnək üzvlərinin konsert proqramı ilə başa çatmışdır.

**"Qəbələ"**

# Yol turizmin inkişafı üçün əsas şərtdir



Tikilməkdə olan qırx üç kilometrlik Ləki-Qəbələ dəmir yolu təkcə rayonumuzun deyil, bütün regionun turizm potensialının daha da inkişafına böyük təkan verəcək.

Rayonda təkcə ötən il yerli əhəmiyyətli iki avtomobil yolu tikilərək istifadəyə verilib. Bu gün 20 mindən çox əhalisi olan 10 yaşayış məntəqəsinin rayon mərkəzinə olan məsafəsini 30 kilometrədək qısaldacaq yolda–Bum çayı üzərində yeni körpünün tikintisinə başlanılıb.

Həmçinin 25 kilometrlik Əmirvan-Seyidqışlaq-Vəndam avtomobil yolunun tikintisi üçün də geniş hazırlıq işləri aparılır.

**"Qəbələ"**

# Arxeoloji mərkəzlə tanış olublar

***Avrasiya Tərcümə Mərkəzinin əməkdaşları Qəbələ Dövlət Tarix-Bədii Qoruğuna səfər ediblər. Onlar burada Qəbələ Arxeoloji Mərkəzinin sərgi salonunda nümayiş olunan eksponatlarla, həmçinin qoruğun ərazisində aparılan arxeoloji qazıntı sahələri ilə yaxından tanış olublar.***



Tərcümə mərkəzinin əməkdaşlarının diqqətinə çatdırılıb ki, ərazidə aparılan arxeoloji qazıntılar zamanı aşkar olunan maddi-mədəniyyət nümunələri qeydiyyata alınaraq mərkəzin funduna təhvil verilir və sərgi salonunda ziyarətçilərə nümayiş etdirilir. Hazırda burada 2 minədək eksponat sərgilənir.

Sonra qonaqlar Qəbələ Dövlət Tarix-Bədii Qoruğu və Arxeoloji Mərkəz haqqında sənədli filmə baxıblar.

**Səfa ASLANOV,**
**"Qəbələ"**

# Minik avtomobillərinin sayı xeyli artıb

Rayon statistika idarəsinin məlumatına görə 2019-cu ildə rayonumuzda avtonəqliyyat vasitələrinin sayı əvvəlki illə müqayisə-



də 826 ədəd və ya 8 faiz artaraq 11 min 172 ədəd olub. Mövcud nəqliyyat vasitələrinin 9 min 525 ədədi minik, 1413 ədədi yük avtomobili, 114 ədədi avtobus, 68 ədədi xüsusi təyinatlı, 52 ədədi isə digər təyinatlı avtomaşınlardır. Son bir ildə minik avtomobillərinin sayı 8,5 faiz, yük avtomobillərinin sayı isə 3,8 faiz artıb.

İqtisadiyyatın digər sahələrində olduğu kimi, nəqliyyat sektorunda da davamlı islahatların aparılması, ölkənin əlverişli coğrafi mövqedə yerləşməsindən səmərəli şəkildə istifadə olunması nəqliyyat sahəsinin inkişafını daha da sürətləndirib.

Ötən il rayonda avtomobil nəqliyyatı ilə 1 milyon 307 min ton, yəni əvvəlki ildəkindən 10 min ton çox yük daşınıb. Sərnişin daşınması isə əvvəlki illə müqayisədə 3,5 faiz artaraq 9 milyon 416 min nəfər təşkil edib.

**"Qəbələ"**

# «Yüksəliş» müsabiqəsinin avtobusları Qəbələyə gəlmişdir

Ölkə başçısının sərəncamı ilə təsis edilən "Yüksəliş" müsabiqəsi Azərbaycanda intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektivli rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr



ehtiyatı bankının yaradılmasının təmin edilməsini nəzərdə tutur.

Qeyd edək ki, "Yüksəliş" müsabiqəsi müstəqil Azərbaycan dövlətinin gələcək taleyüklü məsələlərini həll edəcək yeni nəslin, kadr potensialının hazırlanması istiqamətində tam fərqli düşüncə və yanaşmadır.

Müsabiqənin səyyar avtobusları yanvarın 25-də Qəbələyə gəlmişlər. Səfərin məqsədi müsabiqə ilə bağlı əhalini məlumatlandırmaq, informasiya-kommunikasiya texnologiyalarına çıxış imkanları məhdud olan şəxslər üçün qeydiyyatdan keçməyə şərait yaratmaqdır.

"Yüksəliş" müsabiqəsinin qeydiyyat mərhələsi fevralın 2-də yekunlaşmışdır.

**"Qəbələ"**

# Böyük uğurlar qazanılıb

2019-cu ildə rayonumuzda iqtisadi və sosial sahələrin inkişafına bütün maliyyə mənbələri hesabına 80 milyon 708 min manat investisiya yönəldilib. Əsas kapitala yönəldilmiş vəsaitlərin 77,7 faizi dövlət, 22,3 faizi isə qeyri-dövlət sektorunun payına düşür.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 78 milyon 821 min manatı və ya 97,6 faizi tikinti-quraşdırma işlərinə sərf olunub. Bu, əvvəlki illə müqayisədə 15 milyon 528 min manat və ya 24,5 faiz çoxdur.

Eləcə də ötən il rayonda əhalinin şəxsi vəsaiti hesabına dəyəri 9,3 milyon manat olan 17 min 200 kvadratmetr mənzil tikilib istifadəyə verilib.

**"Qəbələ"**